## Hərbi Tribunallar Haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I fəsil

## ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1 . **Hərbi tribunallar Azərbaycan Respublikasının məhkəmələridir**

1. Hərbi tribunallar Azərbaycan Respublikasının məhkəmələridir, vahid məhkəmə sisteminə daxildir və Azərbaycan Respublikasının Silahlı Qüvvələrində fəaliyyət göstərirlər.

2. Bütövlükdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, zərurət olduqda isə birləşmələrin və qarnizonların hərbi tribunalları təşkil edilir.

3. Hərbi tribunalların təşkili və səlahiyyəti, habelə onların hakimlərinin və xalq iclasçılarının statusu "Azərbaycan Respublikasının məhkəmə quruluşu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, bu Qanunla və Azərbaycan Respublikasının digər qanunvericiliyi ilə müəyyən edilir.

M a d d ə 2 . **Hərbi tribunalların vəzifələri**

1. Hərbi tribunallar "Azərbaycan Respublikasının məhkəmə quruluşu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində məhkəmələrə tapşırılmış vəzifələri yerinə yetirərək Azərbaycan Respublikasının təhlükəsizliyini, onun Silahlı Qüvvələrinin, sərhəd və daxili qoşunlarının və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hərbi birləşmələrin döyüş qabiliyyətini və döyüşə hazırlığını, hərbi intizamı və hərbi xidmətin müəyyən edilmiş qaydasını, hərbi qulluqçuların, habelə toplanışlara çağırılmış hərbi vəzifəlilərin və başqa vətəndaşların elan olunmuş və qanunla təminat verilən sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlarını, hərbi hissələrin, hərbi tədris ocaqlarının, hərbi müəssisələrin, idarələrin, təşkilatların hüquqlarını və qanuni mənafelərini hər cür cinayətkar qəsdlərdən qorumalıdırlar.

2. Hərbi tribunalların bütün fəaliyyəti Silahlı Qüvvələrdə sərhəd və daxili qoşunlarda, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hərbi birləşmələrdə qanunçuluğu və hüquq qaydasını hər vasitə ilə möhkəmləndirməyə, hüquq pozuntularının qarşısını almağa, hərbi qulluqçuların qanunlar hərbi andı və əsgəri nizamnamələri dəqiq və dönmədən icra etmək vətəndaşların hüquqlarına, şərəfinə və ləyaqətinə hörmət bəsləmək ruhunda tərbiyə edilməsinə yönəldilmişdir.

M a d d ə 3 . **Hərbi tribunallar tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi**

1. Hərbi tribunallar öz səlahiyyəti daxilində cinayət işlərinə birinci instansiya

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

məhkəməsi kimi baxırlar.

2. Ədalət mühakiməsini həyata keçirərkən hərbi tribunallar Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının məhkəmə quruluşu haqqında" Azərbaycan Respublikasının Qanununu, bu Qanunu və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını rəhbər tuturlar.

3. Hərbi tribunallar ədalət mühakiməsini hərbi qulluqçuların və başqa vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi, hakimlərin müstəqilliyi və ancaq qanuna tabe olması, kollegiallıq, bəhsləşmə, aşkarlıq, müttəhimin müdafiə olunmaq hüququnun təmin edilməsi prinsipləri əsasında və ədalət mühakiməsinin başqa prinsiplərinə müvafiq surətdə həyata keçirirlər.

M a d d ə 4 . **Hərbi tribunallarda cinayət işlərinə baxılarkən məhkəmənin tərkibi**

1. Birinci instansiya məhkəməsində cinayət işlərinə hakimdən və iki nəfər xalq iclasçısından ibarət tərkibdə baxılır.

2. Kassasiya və nəzarət qaydasında və yeni açılmış hallar üzrə işlərə üç hakimdən ibarət tərkibdə baxılır.

M a d d ə 5 . **Hərbi tribunalın tərkibi**

Hərbi tribunal sədrdən, onun müavinindən (zərurət olduqda), hərbi tribunalın üzvlərindən və xalq iclasçılarından ibarətdir.

II f ə s i l

## HƏRBİ TRİBUNALLARIN HAKİMLƏRİ VƏ XALQ İCLASÇILARI

M a d d ə 6 . **Hərbi tribunalların hakimliyinə, hərbi kollegiyaya daxil olan Ali Məhkəmə üzvlüyünə və xalq iclasçılığına namizədlərə verilən tələblər**

1. 25 yaşına çatan, həqiqi hərbi xidmətdə olan, ali hüquq təhsili və zabit heyətinə aid əsgəri rütbəsi olan Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikası Qanunvericiliyində müəyyən edilmiş qaydada hərbi tribunalların hakimləri, hərbi kollegiyaya daxil olan Ali Məhkəmənin üzvləri seçilirlər.

2. Həqiqi hərbi xidmətdə olan Azərbaycan Respublikasının vətəndaşı yaşından asılı olmayaraq hərbi tribunalın xalq iclasçısı seçilə bilər. 25 yaşına çatan, hərbi xidmətdə olan Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının xalq iclasçıları seçilə bilərlər.

Hərbi tribunalların, hərbi kollegiyaya daxil olan Ali Məhkəmə üzvlərinin seçilməsinə və səlahiyyətinə aid digər məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada həll edilir.

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

M a d d ə 7 . **Hərbi tribunalların xalq iclasçılarının seçilməsi qaydası və səlahiyyət müddəti**

1. Hərbi tribunalların xalq iclasçıları hərbi hissə və idarələrin, hərbi tədris müəssisələrinin hərbi qulluqçularının yığıncaqlarında açıq səsvermə yolu ilə beş il müddətinə seçilirlər. Onlar seçicilər qarşısında məsuliyyət daşıyır və hesabat verirlər.

2. Hərbi tribunalların xalq iclasçıları öz vəzifələrinin icrasına növbəlik qaydasında, ildə ən çoxu iki həftəliyə çağırılırlar; onların iştirakı ilə başlanmış məhkəmə işinə baxılmasını başa çatdırmaq zərurətindən asılı olaraq bu müddətin uzadıldığı hallar istisna təşkil edir.

3. Ədalət mühakiməsinin həyata keçirilməsində funksiyalarını yerinə yetirmək üçün xalq iclasçısının hərbi tribunala buraxılması onun xidmət etdiyi hərbi hissələrin və idarələrin komandanlığı üçün məcburidir.

M a d d ə 8 . **Hərbi tribunal hakimlərinin və xalq iclasçılarının hüquqları**

1. Hərbi tribunalların hakimləri və xalq iclasçıları ədalət mühakiməsini həyata keçirmək üçün zəruri olan və Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən hakimiyyət səlahiyyətinə malikdirlər.

2. Hərbi tribunal hakiminin aşağıdakı hüquqları da var:

qanunla ona tapşırılmış vəzifələrin həyata keçirilməsi ilə bağlı olan sərəncamlarını icra etməyi hərbi idarəetmə orqanlarından, hərbi hissələrin və idarələrin komandirlərindən (rəislərindən), digər vəzifəli şəxslərdən, hərbi qulluqçulardan və başqa vətəndaşlardan tələb etmək;

qanun pozuntularının və ya hüquq pozuntularına kömək edən səbəblərin və şəraitin aradan qaldırılması barədə hərbi idarəetmə orqanlarına, hərbi hissələrin və idarələrin komandirlərinə (rəislərinə), digər vəzifəli şəxslərə, habelə dövlət orqanlarına və ictimai təşkilatlara təqdimatlar vermək;

hərbi idarəetmə orqanlarından, hərbi hissələrin və idarələrin komandirlərindən (rəislərindən), dövlət və ictimai orqanlardan, elmi idarələrdən və informasiya mərkəzlərindən ədalət mühakiməsinin həyata keçirilməsi üçün zəruri olan məlumatı tələb edib almaq;

hakimlər konfransının müzakirəsinə, habelə bilavasitə raspublikanın Ali Məhkəməsinə qanunvericiliyin tətbiqi məsələlərinə dair rəhbər izahatlar verilməsi barədə təkliflər vermək.

3. Hərbi komandanlıq, dövlət orqanları, ictimai təşkilatlar və vəzifəli şəxslər hərbi hakimlərin məhkəmə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar tələblərini və sərəncamlarını yerinə yetirməyə, onların təqdimatlarına və sorğularına vaxtında cavab verməyə borcludurlar.

4. Hərbi tribunal hakiminin təqdimatına təxirə salmadan baxılmalıdır. Qanun pozuntularının, hüquq pozuntularına kömək edən səbəblərin və şəraitin aradan qaldırılması üçün ən geci bir ay müddətində tədbirlər görülməli və nəticəsi barədə müvafiq hərbi, tribunala məlumat verilməlidir.

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

M a d d ə 9 . **Hərbi tribunal hakimlərinin və xalq iclasçılarının vəzifələri**

1. Hərbi tribunalların hakimləri və xalq iclasçıları cinayət işlərinə baxarkən qanunların tələblərini dəqiq icra etməyə, vətəndaşların hüquq və azadlıqlarının, şərəfinin və ləyaqətinin, cəmiyyətin mənafeyinin qorunmasını, məhkəmə fəaliyyətinin yüksək mədəniyyətini və tərbiyələndirici təsirini təmin etməli, ədalətli və insaflı olmalıdırlar.

2. Hərbi tribunalların hakimləri peşə biliklərinin səviyyəsini artırmalı, məhkəmə praktikasını öyrənməli və ümumiləşdirməli, hərbi qulluqçuların hüquq tərbiyəsi işində iştirak etməlidirlər.

3. Hərbi tribunalların hakimləri və xalq iclasçıları məhkəmədə öz vəzifələrini yerinə yetirərkən, habelə xidmətdən kənar münasibətlərdə ədalət mühakiməsinin nüfuzuna, hakimin ləyaqətinə xələl gətirə bilən və ya onun obyektiv və qərəzsiz olduğuna şübhə doğura bilən nə varsa hamısından çəkinməlidirlər. Onların ixtiyarı yoxdur ki, hakimlər müşavirəsinin sirrini və qapalı məhkəmə iclasları keçirilərkən aldıqları məlumatı yaysınlar.

4. Hərbi tribunalların xalq iclasçıları ədalət mühakiməsinin həyata keçirilməsi funksiyalarını yerinə yetirmək üçün hərbi tribunala vaxtında gəlməli, hüquq biliklərinə yiyələnməli, hər bir işin məhkəmə təhqiqatına hazırlaşmalı, hüquq pozuntularının qarşısının alınması işində iştirak etməlidirlər.

5. Hərbi tribunalların hakimləri xalq iclasçılarını baxılmalı işlərlə, qüvvədə olan qanunvericilik və onun tətbiqi praktikası ilə qabaqcadan tanış etməli, öz səlahiyyətini həyata keçirməkdə onlara başqa kömək göstərməlidirlər.

M a d d ə 1 0 . **Hərbi tribunal, hərbi kollegiya hakimlərinin intizam məsuliyyətinə cəlb olunması. Hakimlərin və xalq iclasçılarının geri çağırılması və vaxtından əvvəl azad edilməsi**

Hərbi tribunal, hərbi kollegiya hakimlərinin intizam məsuliyyətinə cəlb olunması, hakimlərin və xalq iclasçılarının geri çağırılması və vaxtından əvvəl azad edilməsi məsələləri Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həll olunur.

## III f ə s i l

## İŞLƏRİN HƏRBİ TRİBUNALLARA AİDİYYƏTİ

M a d d ə 1 1 . **Hərbi tribunallarda baxılmalı işlər**

1. Hərbi tribunallara aşağıdakı işlər aiddir:

hərbi qulluqçuların, habelə toplanış keçərkən hərbi vəzifəlilərin törətdikləri bütün

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

cinayətlər haqqında işlər;

Milli Təhlükəsizlik Nazirliyi orqanlarının zabit heyətinin, serjantlarının, starşinalarının, əsgərlərinin törətdikləri bütün cinayətlər haqqında işlər;

islah-əmək müəssisələrinin rəis heyətinə mənsub şəxslərin müəyyən edilmiş xidmət qaydasına qarşı törətdikləri cinayətlər haqqında işlər;

Azərbaycan Respublikasının qanunvericiliyində barəsində göstəriş olan şəxslərin törətdikləri cinayətlər haqqında işlər.

M a d d ə 1 2 . **Bir neçə şəxs barəsində və ya bir neçə cinayət törədilərkən işlərə baxılması**

1. Bir şəxs və ya bir qrup şəxs bir neçə cinayət törətmək üstündə ittiham, edilərkən cinayətlərin biri haqqında iş hərbi tribunala, o biri cinayətlər haqqında iş isə hər hansı başqa məhkəməyə aid olarsa, bütün cinayətlər haqqında işə hərbi tribunal baxır.

2. Bir qrup şəxs bir və ya bir neçə cinayət törətməkdə ittiham-edilərsə, müttəhimlərin biri barəsində iş hərbi tribunala aiddirsə və onun ayrılması mümkün deyildirsə, qalan müttəhimlər barəsində iş isə hər hansı başqa məhkəməyə aiddirsə, bütün müttəhimlər barəsində işə hərbi tribunal baxır.

M a d d ə 1 3 . **Hərbi xidmətdən buraxılmış və ya hərbi xidmətə çağırılanadək cinayət**

**törətmiş şəxslər barəsində işlərə baxılması**

1. Bu Qanunun 17-ci maddəsinin 1-ci bəndində göstərilmiş və hərbi xidmət zamanı cinayət törətmiş, lakin məhkəmədə işə baxılanadək xidmətdən buraxılmış şəxslərin cinayətləri haqqında işlərə hərbi tribunallar baxır.

2. Hərbi xidmətə çağırılanadək və ya milli təhlükəsizlik, yaxud daxili işlər orqanlarına xidmətə qəbul edilənədək cinayət törətmiş, lakin işə baxılan vaxt hərbi xidmətdə və ya Milli Təhlükəsizlik Nazirliyinin, yaxud Daxili İşlər Nazirliyinin orqanlarında xidmətdə olan şəxslərin cinayətləri haqqında işlərə ümumi məhkəmələr baxır.

M a d d ə 1 4 . **İşlərin hərbi tribunala aidiyyəti**

Birinci instansiya hərbi tribunallarına aşağıdakılar aiddir:

podpolkovnik (ikinci dərəcəli kapitan) rütbəsi də daxil olmaqla bu rütbəyədək əsgəri rütbələri olan şəxslərin cinayətləri haqqında işlər;

tabor komandiri (ikinci dərəcəli kəmi komandiri) də daxil olmaqla bu vəzifəyədək olan vəzifələrdə çalışan şəxslərin və xidmət mövqeyinə görə onlara bərabər şəxslərin cinayətləri haqqında işlər.

M a d d ə 1 5 . **İşlərin Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına**

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

**aidiyyəti**

Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına aşağıdakılar aiddir:

polkovnik (birinci dərəcəli kapitan), general (admiral) əsgəri rütbələri olan, yaxud alay, tuğay komandirindən başlamış yuxarı vəzifələrdə və bunlara bərabər vəzifələrdə çalışan şəxslərin cinayətləri haqqında işlər;

işləri hərbi tribunala aid olan şəxslərin dinc dövrdə ölüm cəzası təyin edilməsinə səbəb ola bilən bütün cinayətləri haqqında işlər.

M a d d ə 1 6 . **İşlərin bir məhkəmədən başqasına verilməsi**

1. İşlərin bir məhkəmədən başqasına verilməsi məsələsini Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri həll edir.

2. Respublika Ali Məhkəməsinin hərbi kollegiyası aşağı hərbi tribunala aid olan hər hansı işi birinci instansiya məhkəməsi. kimi baxılmağa qəbul edə bilər.

I V f ə s i l

## HƏRBİ TRİBUNALLARIN MƏHKƏMƏ FƏALİYYƏTİNƏ NƏZARƏT

M a d d ə 1 7 . **Hərbi tribunalların məhkəmə fəaliyyətinə nəzarət edən orqanlar**

Hərbi tribunalların məhkəmə fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Ali Məhkəməsi öz səlahiyyəti daxilində həyata keçirir.

M a d d ə 1 8 . **Hərbi tribunalların məhkəmə fəaliyyətinə nəzarət sahəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin səlahiyyəti**

Hərbi tribunalların məhkəmə fəaliyyətinə nəzarət sahəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin səlahiyyəti “Azərbaycan Respublikasının məhkəmə quruluşu haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikasının Ali Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunvericiliyi ilə müəyyən edilir.

V f ə s i l

## HƏRBİ TRİBUNALLARIN FƏALİYYƏTİNİN TƏŞKİLATİ TƏMİNATI

M a d d ə 1 9 . **Hərbi tribunalların fəaliyyətinin təşkilati təminatı sahəsində Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyası sədrinin**

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

**səlahiyyəti**

1. Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının sədri "Azərbaycan Respublikasının məhkəmə quruluşu haqqında" Azərbaycan Respublikasının Qanununun 76-cı maddəsində və Azərbaycan Respublikasının digər qanunvericiliyində müəyyən edilmiş səlahiyyəti həyata keçirir, habelə:

hərbi tribunalların fəaliyyətindən irəli kələn məsələlər barəsində müdafiə nazirinə, milli təhlükəsizlik nazirinə, daxili işlər nazirinə, sərhəd qoşunlarının və daxili qoşunların komandanlığına məlumat verir;

Müdafiə Nazirliyi kollegiyasının iclaslarında qanunçuluğun və əsgəri intizamın möhkəmləndirilməsi məsələlərinin müzakirəsində iştirak edir.

M a d d ə 2 0 . **Hərbi tribunalın sədri**

1. Hərbi tribunalın sədri:

hərbi tribunalın işinə rəhbərlik edir;

hərbi tribunal kadrlarının ixtisasının artırılması və tərbiyələndirilməsi işini yerinə yetirir;

hərbi tribunalın xalq iclasçılarına öz hüquq biliklərini artırmaqda kömək göstərmək sahəsində hakimlərin işinə rəhbərlik edir;

hərbi tribunalda məhkəmə praktikasının öyrənilməsinə və məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

qanun pozuntularının və ya hüquq pozuntuları törədilməsinə kömək edin səbəblərin və şəraitin aradan qaldırılması barəsində hərbi idarəetmə orqanlarına, hərbi hissələrin və idarələrin komandirlərinə (rəislərinə), dövlət orqanlarına, ictimai təşkilatlara, vəzifəli şəxslərə təqdimatlar verir;

hərbi qulluqçuların hüquq tərbiyəsində hakimlərin iştirakı işini təşkil edir, bu fəaliyyəti komandanlıq və hərbi prokurorluq ilə əlaqələndirir;

hərbi tribunalların fəaliyyətindən irəli kələn məsələlər barəsində müvafiq hərbi komandanlığa məlumat verir.

2. Hərbi tribunalın sədri öz səlahiyyəti daxilində əmrlər ve-rir.

V I f ə s i l

## HƏRBİ TRİBUNALLARIN KOMPLEKTLƏŞDİRİLMƏSİ, ONLARDA HƏRBİ XİDMƏTİN QAYDASI VƏ HƏRBİ TRİBUNALLARIN MADDİ-TEXNİKİ TƏMİNATI

M a d d ə 2 1 . **Hərbi tribunalların strukturu, ştatları və komplektləşdirilməsi**

1. Hərbi tribunalların aparatının strukturunu və ştatlarını Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırmaqla müəyyən edir.

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

2. Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyası aparatının strukturunu və ştatlarını Azərbaycan Respublikası Ali Məhkəməsinin Rəyasət heyəti Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırmaqla müəyyən edir.

3. Hərbi tribunalların və Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının maliyyə və maddi-texniki təminatı, mühafizəsi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin vəsaiti hesabına həyata keçirilir.

M a d d ə 2 2 . **Hərbi tribunallar sistemində hərbi xidmət çəkilməsinin, hərbi qulluqçu**

**olmayan işçilərin vəzifəyə təyin və azad edilməsinin qaydası**

1. Hərbi tribunalların və Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının aparatının işçilərini hərbi tribunalların sədrləri və hərbi kollegiyanın sədri hərbi qulluqçular sırasından vəzifəyə təyin edir və vəzifədən azad edirlər.

Hərbi tribunalların və Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının hərbi qulluqçu olmayan işçilərini hərbi tribunalların sədrləri və hərbi kollegiyanın sədri ümumi əsaslarla işə qəbul edir və işdən azad edirlər.

2. Hərbi tribunalın hakimlərinə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ixtisas dərəcələri və buna görə vəzifə maaşlarına əlavələr verilir.

3. Hərbi tribunalların və Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının hərbi qulluqçularına növbəti əsgəri rütbələr qanunla müəyyən edilmiş müddətlər çatdıqda verilir.

4. Hərbi tribunalın və ya Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının hakiminin hərbi xidmət müddətinin qurtarması onların hakimlik səlahiyyətinə xitam verilməsinə əsas verə bilməz.

M a d d ə 2 3 . **Hərbi tribunal hakimlərinin yaşayış sahəsi ilə təmin edilməsi və onların**

**yol sənədləri alması qaydası**

1. Hərbi tribunal hakiminin seçilməsindən ən geci 3 ay keçənədək yerli hakimiyyət orqanı Müdafiə Nazirliyinin mənzil fondu hesabına onu ayrıca mənzil və ya ev şəklində abad yaşayış sahəsi ilə təmin edir.

2. Hərbi hakim məhkəmə işlərinə baxılması ilə əlaqədar səfərləri üçün bütün nəqliyyat növlərinin yol sənədlərini kassalarda növbədənkənar qaydada ala bilər.

M a d d ə 2 4 . **Həbsdə saxlanan şəxslərin müşayiət olunması**

1. Qoşun və qarnizon əsgər dustaqxanalarında saxlanan şəxslərin hərbi məhkəmələrə müşayiət olunmasını müvafiq olaraq hərbi hissələr və ya qarnizonların hərbi komendantlıqları hərbi tribunalların tələbnamələri üzrə, Müdafiə Nazirliyinin müəyyən etdiyi qaydada həyata keçirirlər.

PURL: https://www.legal-tools.org/doc/0bc08b/

2. Həbs edilənlərin saxlandığı başqa yerlərdə, habelə həbsxanalarda və islah-əmək koloniyalarında olan şəxslərin hərbi tribunallarda işlərə baxılan yerə müşayiət olunmasını müvafiq orqanlar həyata keçirirlər.

M a d d ə 2 5 . **Yekun müddəaları**

Hərbi tribunalların hakimləri və xalq iclasçıları məhkəmə işlərinə baxarkən müəyyən edilmiş hərbi keyim formasında olmalıdırlar.

Hərbi tribunalların binalarında, məhkəmə iclası salonlarında, möhürlərində və sənədlərinin blanklarında Azərbaycan Respublikası dövlət gerbinin təsviri olur.

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**İ. QƏMBƏROV.**

Bakı şəhəri, 27 may 1992-ci il.
№ 138.

PURL: https://www.legal-tools.org/doc/0bc08b/